# Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib

**Aprelin 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.**

Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılması ilə əlaqədar məsələ iclasın gündəliyinə salınıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən, Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Təqdimat oxunub, namizəd haqqında ətraflı məlumat verildikdən sonra "Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı səsə qoyularaq qəbul edilib.

Anar İbrahimov Ali Məclis adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimadı ilə yeni vəzifəyə təyin olunması münasibətilə Ceyhun Cəlilovu təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimad göstərərək onu Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə dərin minnətdarlığını bildirən Ceyhun Cəlilov çıxış edərək deyib ki, Azərbaycan dövləti həqiqətən də tarixinin ən qüdrətli dövrlərini yaşamaqdadır. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulub və bu siyasət davam etdirilməkdədir. Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan Muxtar Respublikasının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir.

Qarşıda duran vəzifələrə görə tədbirlərin kompleks və uğurla icra edilməsi məqsədilə səylərini əsirgəməyəcəyini deyən Ceyhun Cəlilov muxtar respublika rəhbərliyinə, təqdimatı yekdilliklə qəbul etdiyinə görə deputatlara təşəkkür edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 26 aprel, № 84.- S.5.